# MUSTAFAYEV ÇİNGİZ FUAD OĞLU



Mustafayev Çingiz Fuad oğlu 29 avqust 1960-cı ildə Həştərxan vilayəti Vladimir rayonunun Kapustin-Yar qəsəbəsində hərbiçi ailəsində doğulmuşdur. 1964-cü ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. 1977-ci ildə Yasamal rayonundakı 167 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Tibb İnstitutuna daxil olmuşdur. O, 1983-cü ildə ali təhsilini başa vuraraq təyinatla üç il Dəvəçi rayonunda həkim işləmişdir. Sonra isə Bakıya qayıtmış, işini burada davam etdirmişdir. O, ixtisasca həkim olsa da, jurnalistika sənətinə böyük həvəs göstərirdi. Bu, özünü 1990-cı ilin Yanvar hadisələrində daha aydın büruzə verdi. O, Sovet Ordusunun Bakıda törətdiyi qırğını bütün təfsilatı ilə lentə köçürmüşdü. 1991-ci ildən etibarən həyatını jurnalistika ilə bağladı. Ç.Mustafayev Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində işə düzəldi, “215 KL” studiyasının yaradıcılarından biri oldu. O, az müddətdə döyüş bölgələrindən hazırladığı operativ reportajları ilə geniş tamaşaçı auditoriyasını özünə cəlb etdi. Onun Xocalı faciəsi zamanı erməni quldurlarının vəhşiliklərini əks etdirən çəkilişləri bütün dünyanı sarsıtdı. Bununla da o, informasiya blokadasını yararaq Azərbaycan həqiqətlərini planetimizin hər tərəfinə çatdırdı. Cəsur jurnalist hər gün ölümlə üz-üzə gəlirdi. 1992-ci il iyunun 15-də Naxçıvanik kəndində ağır döyüş gedirdi. O, bu döyüşü lentə alarkən qəhrəmancasına həlak oldu. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Evli idi. Bir oğul övladı var. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə Mustafayev Çingiz Fuad oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. DİN-nin Şüvəlan qəsəbəsindəki istirahət guşəsi, Bakı şəhərində küçə, Azərbaycan gəmilərindən biri onun adını daşıyır. Yaşadığı binanın önündə barelyefi vurulmuş, C.Naxçıvanski adına Hərbi Liseydə yaradılmış xatirə kompleksində büstü qoyulmuşdur.